# "MƏN YARADICILIĞIMDAN ZİYADƏ MÜƏLLİMLİYİMLƏ İFTİXAR EDİRƏM"

Azərbaycan ədəbi-ictimai fikir tarixində böyük maarif və mədəniyyət xadimi, qüdrətli şair və nasir, sayılan dramaturq, ədəbiyyatşünas və tənqidçi, mahir tərcüməçi, kimi şöhrətlənən, milli-mədəni dünyamızın əvəzsiz şəxsiyyətlərindən olan Abdulla Şaiq Talıbzadənin 120 illik yubileyi bu il respublikamızda yüksək səviyyədə qeyd olunur. Biz hələ beşikdə ikən anamızdan şairin məşhur şerinin sözləri ilə bəzənən "Layla, mələyim, körpə balam, sevdiciyim, yat" laylasını eşitmişik. Zaman keçdikcə Şaiqin şerləri ilə dil açır, böyüyür, "Uşaq çeşməyi", "İkinci il", "Türk çələngi", "Gülzar", "Qiraət dərsləri", "Müntəxabat" kimi dərsliklərin oxucusuna çevrilirdik. Şaiq irsinə yaxınlaşdıqca, ona yiyələndikcə bu zəngin mənəvi dünyanın ideyalan, milli qürur hissləri ruhumuza hopur. Bir ilə yaxındır ki, Abdulla Şaiqin varlığı xislətli şəxsiyyəti hərtərəfli yaradıcılığı, şerləri, romanları, dram əsərləri, bədii tərcümələri, müəllimlik fəaliyyəti insanların qəlbinə günəş kimi şəfəq saçır.

Unudulmaz yazıçımız öz xatirələrində yazırdı: "1902-ci ildə görkəmli maarifpərvər Həbib bəy Mahmudbəyov müdir olduğu 6-sinifli məktəbin aşağı siniflərinə ana dili müəllimi təyin edildim" səh.106/ Bəli, Həbib bəy öz məktəbinə uşağın dilini bilən, onlarla işləməyi bacaran maarifçiləri toplayırdı.

Vaxtilə A.Şaiq, S.S.Axundov, M.S.M.Qənizadə, Həbib bəy Mahmudbəyov, Həmidə xanım Behbudova kimi gözəl insanlar dərs apardığı hal-hazırda Həbib bəy Mahmudbəyovun adını daşıyan texniki humanitar elmlər litseyində 120 illik yubiley böyük təntənə ilə qeyd olundu.

Məktəbin akt zalında A.Şaiqin həyatını, yaradıcılığını və müəllimlik fəaliyyətini əks etdirən foto sərgi təşkil edilmişdir. Tədbir Azərbaycan dövlət himni ilə başlandı, sonra məktəbin ədəbiyyat müəllimi, tədbirin təşkilatçısı Ellada Ramazanova A.Şaiq işığının nuruna toplaşan, başda akademik Kamal Talıbzadəyə və bütün tədbir iştirakçılarına öz təşəkkürünü bildirərək, gecənin təşkilində yaxından köməklik göstərən, A.Şaiq mənzil müzeyinin elmi işçisi Arzu Tarverdiyevaya, təsərrüfat müdiri Rauf Kərimova minnətdarlığını bildirdi.

Tədbirdə dil-ədəbiyyat müəllimi, Kəmalə Abbasova və liseyin ali kateqoriyalı metodisti, dil-ədəbiyyat müəllimi "Həbib bəy Mahmudbəyov məktəbi" kitabının müəllifi Kamilə Məmmədova A.Şaiqin yaradıcılığı və çoxşaxəli fəaliyyəti barədə, H.Mahmudbəyov məktəbində A.Şaiqin müəllimlik fəaliyyəti barədə geniş məruzə etdi.

A.Şaiqin "Tülkü həccə gedir", "Tıq-tıq xanım", "Zəhmət və ziynət" əsərlərindən səhnəciklər göstərdilər, şerlərini söylədilər və sözlərinə yazılmış mahnıların ifa etdilər. Tədbirin sonunda A.Şaiqin oğlu, akademik Kamal Talıbzadə, səhnədə xüsusi yer ayrılmış, sanki balaca A.Şaiqin simasını əks etdirən Azər Zeynalını bağrına basaraq kövrək hisslərlə alnından öpdü. Sonra atasına göstərilən diqqət və qayğıya görə bütün tədbir iştirakçılarına minnətdarlığını bildirdi.

*Arzu HACIZADƏ*